

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 56 (23.943)

29 mart 2022-ci il, çərşənbə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mart ayının 20-də Tərtərin Suqovuşan qəsəbəsində olublar. Suqovuşan qəsəbəsinə çəkilmiş müasir izolyasiyalı və mühafizəli kabel xəttinin təqdimatı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanış olublar, eyni zamanda qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binasında olub, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanıblar. Həmin gün Tərtər rayonunun Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin, Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməli qoyulub. Qəsəbədə Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının açılışları olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində bayram tonqalı alovlandırıblar. Sonra dövlətimizin başçısı Azərbaycan xalqını təbrik edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mart ayının 28-də Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib.



## AMEA Naxçıvan Bölməsində "Elm günü" qeyd edilib

*Dünən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin böyük akt zalında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə "Elm günü"nə həsr edilmiş tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin böyük diqqət yetirdiyi Azərbaycan elminin inkişaf konsepsiyası bu gün dövlət siyasətinin mühüm tərkib hissəsi kimi uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin 2016-cı il 14 iyun tarixli Fərmanı ilə "Elm haqqında" Qanunun qəbul edilməsi, 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə martın 27-nin Azərbaycan Respublikasında "Elm günü" kimi təsis edilməsi Azərbaycan Respublikasında elmin inkişafını dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirib.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin 2002-ci il 7 avqustun 7-də AMEA Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi Sərəncam imzalaması ilə muxtar respublikamızın elmi mühiti mərkəzləşmiş, sistemli və davamlı inkişaf mərhələsinə qədəm qoymuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyəti, Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Bioresurslar, Təbii Ehtiyatlar institutları, Batabat Astrofizika Rəsədxanası üçün binalar tikilmiş və ya əsaslı təmir olunmuş, yeni avadanlıqlarla təchiz edilmiş laboratoriyalar və iş otaqları ilə təmin edilmişdir. Nəticədə, bölmənin yüksəkixtisaslı əməkdaşları tərəfindən qədim diyarımızla bağlı elmin mühüm sahələri tədqiq edilərək öyrənilmiş və bu iş bu gün də yüksək fəallıqla davam etdirilir. Əldə olunan yeniliklər dünyanın nüfuzlu elmi jurnallarında işıqlandırılır. Eyni zamanda ötən illər ərzində muxtar respublikada təşkil olunmuş beynəlxalq elmi konfranslarda, ölkəmiqyaslı və beynəlxalq aləmdə baş tutmuş mötəbər tədbirlərdə alimlərimizin iştirakı və çıxışları, həmçinin dünyanın bir sıra beynəlxalq nüfuzlu elmi-tədqiqat mərkəzləri tərəfindən mükafatlandırılması, medallara layiq görülməsi, beynəlxalq qurumların və jurnalların redaksiya heyətinin üzvü seçilməsi beynəlxalq elmi aləmlərin inkişafının mühüm göstəricisidir.



Qeyd edilib ki, dövlət elm siyasətinin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 23 avqust tarixli Fərmanı ilə Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublikasının Mükafatlar Komissiyası yaradılıb. Ötən dövr ərzində dövlət qayğısı ilə elmi əhəmiyyətli əsərlər və memarlıq layihələrinin xüsusi mükafatlara layiq görülməsi ənənəyə çevrilib. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 4 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu təsis edilib. Fondun əsas fəaliyyətlərindən biri də elmi konfransların, seminarların və dəyirmi masaların keçirilməsi, elmi əhəmiyyətli kitabların nəşri, ümumilikdə, elmi yeniliklərin dəstəklənməsidir. Bu gündək Bilik Fondunun maliyyə dəstəyi ilə yüzlərlə kitab və jurnallar nəşr edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 7 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması muxtar respublikada elm və təhsilin inkişafı istiqamətində yeni bir mərhələ təşkil etməyə başlayıb.

Vurğulanıb ki, muxtar respublikanın elm, ali və orta ixtisas təhsili müəssisələrində çalışan yüksəkixtisaslı professor-müəllim heyətinin mövcud elmi potensialından səmərəli istifadə olunması da diqqətdə saxlanılmışdır. Belə ki, ümumtəhsil məktəblərində nümunəvi və interaktiv dərslərin keçilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında" 2021-ci il 25 iyun tarixli Sərəncamına əsasən ali təhsil müəssisələrinin ixtisaslarının aid təşkilatlara hamiliyə verilməsi gənc nəsildə elmə marağın artması, yaradıcı elmi təfəkkürə malik yeni nəslin formalaşmasına öz müsbət təsirini göstərir.

Emin Məmmədov çıxışının sonunda əminliyini bildirib ki, muxtar respublikamızın elm adamları bundan sonrakı fəaliyyətlərində də yüksək peşəkarlıq nümayiş etdirərək Azərbaycan, bütövlükdə, dünya elminə öz töhfələrini verəcək, bu peşənin layiqli davamçılarının yetişməsinə səbəb olacaqlar.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, Azərbaycanda elmin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq 2002-ci il avqustun 7-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi Sərəncam imzaladı. 2003-cü ilin yanvarından fəaliyyətə başlayan bölmədə hazırda 4 ixtisas üzrə 2 Dissertasiya Şurası mövcuddur. İndiyə qədər 125-ə qədər dissertasiyanın müdafiəsi təşkil edilib, bölmədə işçilərin sayı artaraq 253 nəfərə, fəlsəfə doktorları 52 nəfərə, elmlər doktorları 12 nəfərə, doktorant və dissertantlar 45 nəfərə çatdırılıb. Qarşıya qoyulan vəzifələrlə əlaqədar bölmənin tarixçi alimləri onlarla kitab və monoqrafiyalar, ümumiləşdirici əsərlər, xəritələr və elmi məqalələr hazırlayıb, çap etdiriblər. Bölmədə hər il beynəlxalq və respublika, muxtar respublika səviyyəli konfrans və tədbirlər keçirilir. Ötən il bölmənin 37 əməkdaşı xaricdə keçirilən 41, 55 əməkdaşı isə respublikada 14 beynəlxalq konfransda məruzə ediblər. Bölmə əməkdaşlarının 19 il ərzində (2003-2021) 10489 əsəri nəşr olunub. O cümlədən 90 məqalə impakt-faktorlu jurnallarda, 650-yə qədər məqalə beynəlxalq kodlu elmi jurnallarda nəşr edilib.

İsmayıl Hacıyev çıxışının sonunda muxtar respublikanın ziyalıları, eləcə də elm adamları adından muxtar respublikada elmə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərlinin "Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində ictimai və humanitar elmlərin inkişafı", Bioresurslar İnstitutunun baş direktoru, biologiya elmləri doktoru İsmayıl Məmmədovun "Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində təbiət və texniki elmlərin inkişafı", AMEA Naxçıvan Bölməsi Aparatının Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru Orxan Bağırovun "AMEA Naxçıvan Bölməsində elmin beynəlxalq aləmə inteqrasiyası" mövzularında çıxışları dinlənilib.

**Güntac ŞAHMƏMMƏDLİ**

## 2022-ci ilin yanvar-fevral aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2022-ci ilin yanvar-fevral aylarında 379 milyon 91 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artaraq 818,6 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 184 milyon 82 min 600 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2022-ci ilin yanvar-fevral aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 77 milyon 904 min 700 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 72 milyon 749 min 600 manatı və ya 93,4 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2022-ci ilin yanvar-fevral aylarında 17 milyon 508 min 900 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 4084 ton, süd istehsalı 5399 ton olmuşdur. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 5,8 faiz, süd istehsalı isə 1,6 faiz artmışdır.

* * *

2022-ci ilin yanvar-fevral aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 10 milyon 552 min 100 manat olmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 4,1 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 7 milyon 865 min 900 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,4 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2022-ci ilin yanvar-fevral aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 43 milyon 871 min manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 41,5 faiz çoxdur. Verilmiş kreditlərin 4 milyon 395 min 500 manatı və yaxud 10 faizi qısamüddətli, 39 milyon 475 min 500 manatı və yaxud 90 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

2022-ci ilin yanvar ayında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 553,8 manata çatdırılmışdır ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çoxdur.

* * *

1 fevral 2022-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1514 nəfər artaraq 463 min 86 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Vətən müharibəsində iştirak etmiş hərbçilər təltif olunublar

*Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 2021-ci il 24 iyun tarixli sərəncamları ilə təltif edilmiş Vətən müharibəsi iştirakçılarına medallar təqdim edilib.*



Bu münasibətlə keçirilən tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Vətən müharibəsi iştirakçıları ilə görüşən Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev müstəqil dövlətimizin banisi ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətindən və 44 günlük müharibə ilə qazanılan Zəfərdən danışıb.

General-polkovnik Kərəm Mustafayev bildirib ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda gedən mübarizədə xalqımız əzm və iradə ilə bir yumruq olub düşmənə sarsıdıcı zərbələr endirdi. Vətən müharibəsi ilə yazılan bu tarix Azərbaycanımızın inkişafı üçün möhkəm bünövrə olmaqla bərabər, Cənubi Qafqaz regionu üçün də dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir. Vətən müharibəsində iştirak etmiş Naxçıvandan olan hərbçilərə və Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyətinə yüksək qiymət verən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi: ***“Naxçıvanlılar İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər”.***

Martın 15-də şəhid ailələrinə və qazilərə mənzillərin, Vətən müharibəsi iştirakçılarına avtomobillərin təqdim olunduğu tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***“Azərbaycanın xoşbəxt gələcəyi Azərbaycan vətəndaşlarının Vətənə olan sevgisi, vətənpərvərliyi və millətimizin qüdrəti ilə bağlıdır”*** fikirlərini xatırladaraq demişdir: ***“İkinci Qarabağ müharibəsində lider-xalq birliyi və igid oğullarımızın qəhrəmanlığı xalqımıza böyük Zəfər qazandırdı”.***

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının, 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin əhəmiyyətindən danışıb.

Tədbirdə çıxış edən Vətən müharibəsi iştirakçıları kapitan Üzeyir Novruzov və baş leytenant Fariz Babayev döyüşlər barədə təəssüratlarını bölüşüb, müharibə iştirakçılarına və şəhid ailələrinə göstərilən qayğıdan danışıblar.

Tədbirdə dövlət təltifləri haqqında məlumat verilib və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 24 iyun tarixli sərəncamları ilə təltif edilmiş İkinci Qarabağ müharibəsinin iştirakçılarına Xocavəndin, Cəbrayılın, Zəngilanın və Ağdamın azad olunmasında göstərdikləri şücaətə görə ölkə başçısı tərəfindən təltif olunduqları medallar təqdim edilib.

Şəxsi heyətin təntənəli keçidi ilə təltifetmə mərasimi başa çatıb.

**Nəriman NƏCƏFOV**

Ordun varsa, yurdun var

# Dağlara vüqar, Vətənə qürur ərənlər...

***Bu gün fəxrlə yada salırıq ki, respublikamızda ilk milli ordunun yaradılması ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən biridir. Müharibənin ən çətin günlərində ulu öndərin yurdumuzda olması və o çətin vaxtlarda bizimlə birlikdə yaşayıb xalqı birliyə, həmrəyliyə səsləməsi insanları ümidləndirdi, onların gələcəyə inamını artırdı. Yaxşı xatirimdədir, dahi rəhbər yurda qayıdanda hər kəsin dilində bir kəlmə dolaşırdı: O gəlibsə, deməli, hər iş yaxşı olacaq. Çünki bilirdilər, yaxşı bələd idilər Vətən övladına. Və elə də oldu. Əvvəlcə sovet ordusunun silahlarını təhvil verib yurdumuzu tərk etməsi üçün danışıqlar aparıldı, dahi şəxsiyyətin rəhbərliyi ilə Ali Məclisin sentyabr ayında keçirilən sessiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar verildi. Dahi rəhbər xalqı ordu quruculuğuna dəstək verməyə səslədi. El bir oldu və heç kim əlindən gələni əsirgəmədi.***



90-cı illərdə neçə-neçə ananın, qız-gəlinin sandığı, mücrüsü açıldı. Məğrur qadınlarımız öz saxlanc yerləri olan sandıqlarından yadigarlarını, xoş günlərinin xatirələrini, toy-duvaq, gəlin üçün əzizlənə-əzizlənə saxlanılan zinət əşyalarını ovuc-ovuc çıxarıb çörəklə yox, silahla, mərmi ilə dəyişdilər. Çünki qeyrətli Azərbaycan anası tapdığı bir ovuc taxılı üyüdüb yemək üçün ağlayan körpəsini sakitləşdirməyi bacarırdı. Amma mənfur, çörəyimizi yeyib torpağımıza göz dikənləri igid oğullarımız ancaq silahlarla susdura, ata-baba torpaqlarımızdan uzaq tuta bilərdi... Xalqın öz rəhbərinə inamı, yurd, Vətən sevgisi yenə qalib gəldi.

Həmin illərdə ordusuna arxa, dayaq olan nənələrimizdən, babalarımızdan əmanət qalan bir çox ənənə kimi orduya dəstək olmaq adəti də illərdir, yaşadılır. Kimisi bağında, bostanında öz alın tərini torpağa qatıb zəhmətlə yetişdirdiyi məhsullardan, kimisi əmək pensiyasından, kimisi isə mal-qarasından hazırlanan yeməklərdən əsgər balasına pay tutur. İdarə təşkilatlarının nümayəndələri də mütəmadi olaraq orduya öz dəstəklərini nümayiş etdirir. Muxtar respublika rəhbəri xüsusi günləri ordunun igid əsgərləri ilə birgə qeyd edir. Xalq-ordu-dövlət birliyinin ən gözəl nümunəsinə isə Vətən müharibəsində şahid olduq. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 gün davam edən Vətən savaşında şanlı Azərbaycan Ordusu düşməni diz çökdürərək torpaqlarımızı işğalçılardan təmizlədi və ərazi bütövlüyümüzü bərpa etdi. Ali Baş Komandanın iradəsi ilə dəmir yumruğa dönən möhtəşəm xalq bu Zəfəri ilə tarixə qızıl hərflərlə yeni səhifə yazdı. Bu dəmir yumruq xalqın gücünü, milli birliyini, vəhdətini, mübarizliyini bütün dünyaya bəyan etdi. Dövlət başçısının da dediyi kimi: ***“Dəmir yumruq”, sadəcə, güc deyil, bu, birlikdir”.***

Qış fəsli ilə sağollaşıb yazın gəlişini bayram etdiyimiz günlərdən birində yolumuz qədim diyarımızın özü qədər qədim olan Şərur rayonunadır.

Yurdumuzun hər qarış torpağı bizim üçün əzizdir. Ancaq düşmənlə yaxın olan kəndlərimizdə olarkən bu duyğular daha da güclənir. Çünki işğalçı ölkə ilə sərhəddən cəmi bir neçə metrlik məsafədəki abadlığı, inkişafı görmək, Vətənimizin məhz bu gözəl torpaqlardan başladığını düşünmək insana başqa bir qürur verir. Ordunun qüdrəti və döyüş qabiliyyəti həm də onun sıralarında olan vətənpərvər, döyüş ruhlu hərbçilərin olması ilə, güclü texniki təminatla ölçülür. Bu baxımdan qürurla deyə bilərik ki, ötən illər ərzində qeyd olunan bütün bu məsələlər diqqətdə saxlanılıb.

Vətənin başladığı yerə – sərhədə çatır, orada xidmət edən hərbçilərimiz və əsgərlərlə həmsöhbət oluruq. Onların addımladığı torpağa biz də ayaq basır, elimizin, obamızın, Vətənimizin məğrur keşikçilərinin bir gününə şahidlik edirik. Şahid oluruq ki, igid oğullarımızın düşmənin qorxulu yuxusuna çevrilməsi sayəsində torpaqlarımız qorunur. Bir vaxtlar bu uca zirvələrdə qanlı döyüşlərdə sinəsini Vətənə sipər edən oğulların yolunu bu gün Əlahiddə Ümumqoşun Ordunun igid əsgərləri davam etdirir.

Onu da deyək ki, 2013-cü ildə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu yaradılanda bundan əməlli-başlı qorxuya düşən, hər gün müxtəlif bəyanatlar verən ermənilər bu gün dönüb Naxçıvana tərəf baxmağa belə, cürət etmirlər. Yurdumuzda yaradılan güclü ordu və hakim yüksəkliklərdə keşik çəkən vətənpərvər oğulların sayəsində evimizdə rahat yaşayır, qurub-yaradırıq. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının müdafiə potensialı barədə danışarkən dediyi kimi: ***“Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan Ordusu bu gün güclü ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.***

Novruz bayramı münasibətilə hərbçilərimizlə görüşə gələn Vətən müharibəsi iştirakçısı, kiçik çavuş ***Afiyədin Cəfərov*** deyir ki, bu gün hər birimiz Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edirik: – Ordumuzun 2016-cı il aprelin əvvəllərində düşmən təxribatlarının qarşısını almaq üçün həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar, 2018-ci ilin mayında əldə etdiyimiz Günnüt zəfəri, Vətən müharibəsində qazandığımız Böyük Qələbə hər birimizdə qürur hissi yaratdı. Ordumuzun qüdrəti və ölkəmizdə xalq-ordu birliyinin möhkəmliyi sayəsində işğal altındakı torpaqlarımız geri qaytarıldı. Hər qarışı şəhid qanı ilə suvarılan torpağın bir parçası belə, güzəştə gedilmədi. Fəxr hissi ilə deyirəm ki, Vətən müharibəsinin iştirakçısı kimi Hadrud, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə olmuşam. Yaralanmağıma baxmayaraq, yenə də döyüşlərdə iştirak etdim və ən böyük arzuma çatdım – Şuşa şəhərinin azad edildiyi günü gördüm. Şuşa əməliyyatında iştirak etməyim həyatımın ən unudulmaz səhifəsi olaraq qalacaq. O uca dağların başında yerləşən şəhəri yüzlərlə düşməndən azad etmək xəyal kimi görünsə də, ordumuz bunu bacardı. O keçilməz meşələrdə saatlarla payi-piyada çiynimizdə silah, üstümüzdə ağır döyüş geyimləri dayanmadan, nəfəs almadan döyüşə-döyüşə gedirdik. Bəzən barmaqlarımızla torpağı cırmaqlaya-cırmaqlaya, bəzən isə bir koldan yapışa-yapışa çıxırdıq. Aramızda elələri var idi ki, yaralansa da, dözür, hədəfə çatmağa can atırdı. Təcrübəli zabitlərimiz və kəşfiyyatçılarımızın əvvəlcədən verdikləri məlumatların sayəsində istəyimizə nail olduq. Bu gün ordu sıralarında xidmətimi davam etdirirəm. Fəxr edirəm ki, qalib ordunun sıralarında Vətənimin keşiyindəyəm.

Zabit ***Hüseyn Əliyev*** isə deyir ki, Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın hakim yüksəkliklərində etibarlı müdafiə sistemi quraraq düşməni nəzarətdə saxlayır və istənilən təxribatlara adekvat cavab verir: – Ətrafdakı ərazilərə məneəsiz və tam nəzarət edirik. Bu gün bütün döyüş tapşırıqlarını layiqincə yerinə yetirməyə tam hazırıq. Müqəddəs torpağın keşikçisi olduğumuz üçün qürurluyuq. Harada olmağımızın fərqi yoxdur, xidmətimizi layiqincə yerinə yetirməyə səy göstərir, Vətənimizin qorunmasına öz töhfəmizi verməyə çalışırıq. Hər dəfə düşmənlə üz-üzə dayananda onlarla erməni əsgərini təkbaşına məhv edən Mübariz İbrahimovu, əsgəri ilə səngərdə bir döyüşən general Polad Həşimovu gözlərim önünə gətirirəm. Və düşünürəm ki, biz qalib, düşmənlərimiz isə axıtdıqları nahaq qanda boğulan məğlub bir millətin övladlarıdırlar. Müzəffər bir ordunun sıralarında müstəqil Azərbaycanımıza xidmət etdiyim üçün qürur duyuram.

Hərbçilərimizin qonağı olan digər Vətən müharibəsi iştirakçısı, gizir ***Kərim Quliyev*** bir neçə ildir ki, bu şərəfli peşənin məsuliyyətini daşıyır. O, Vətən müharibəsində qardaşı ilə birgə döyüşüb, Şuşa fatehlərindən biri olub. Kərim Quliyevin dedikləri: – Naxçıvandan Qarabağa gedəndə hamımız bir nəfər kimi döyüşə can atırdıq. Buradan birlikdə getdiyimiz yoldaşlarımdan bir neçəsi qazi, şəhid oldu. Düşmənin göz açmağına imkan vermirdik. Orada hər kəsin bir amalı var idi: torpaqlarımızın hər qarışını azad edə bilmək. İşğalda olan ərazilərimizi hissə-hissə geri qaytardığımız saatlar ən xoşbəxt anımız olurdu. Birlikdə getmişdik Qarabağa, amma təəssüf ki, birlikdə qayıda bilmədik. Onlar şəhadət şərbətini içib, ölümsüzlüyə qovuşdular. Vətən yolunda canından keçən igidlərimizin Vətən sevgisi, döyüş yolu gələcək nəsillərə örnəkdir. Biz yoldaşlarımızın xatirəsini daim yaşadacağıq. Artıq iki ildir ki, bayramı bütöv Azərbaycan olaraq qeyd edirik. Bütün bunları isə xalq-dövlət-ordu birliyinin nəticəsində qazandıq. Bu gün havanın soyuq olmasına baxmayaraq, mədəniyyət işçiləri bizi bayram münasibətilə təbrik etməyə gəlib. Sovqat gətiriblər. Belə gözəl bir xalqın nümayəndəsi, müzəffər Ordunun xidmətçisi olmaqdan qürur duyuruq.

Əsgər ***Elbəyi Mayılov*** qızıl yataqları, İstisuyu, keçilməz meşələri ilə dağlar gözəli kimi tanınan Kəlbəcər rayonundandır. Elbəyi deyir: – Kəlbəcəri, Qarabağı ata-anamın dilindən eşitdiklərim ilə təsəvvür edib sevmişəm. Orada doğulmasam da, yurd həsrəti ilə böyümüşəm. Bu gün burada qədim Naxçıvanın keşiyində dayananlardan biri olmaqdan qürur duyuram. Əldə silah, qəlbimizdə Vətən sevgisi ilə sərhədimizi qoruyur və nə yaxşı ki, azərbaycanlıyıq deyirik. Hansı rayonda xidmət etməyimizin fərqi yoxdur. Hər qarışı bizimdir bu torpağın. Vətənimizdəyik və başımızı dik tutub xidmət edirik. Çünki biz qalib bir xalqın övladları, müzəffər bir ordunun əsgəriyik.

Digər əsgər ***Məhəmməd Alməmmədov*** Laçın torpağının övladıdır. Məhəmməd əvvəllər Naxçıvan barədə çox eşitdiyini bildirərək deyir: – Bu qədim yurd yerinin tarixi ilə



həmişə maraqlanırdım. Amma heç ağlıma da gəlməzdi ki, hərbi xidmətimi burada keçəcəyəm. Artıq altı aydır, bu igidlər yurdunda əsgəri xidmətdəyəm. Vətənimizin bu dilbər guşəsində olmaq, tarixboyu alınmaz qala olan Naxçıvanı tanımaq qürurvericidir. Buradakı nizam-intizam, təmizlik, ən əsası isə qonaqpərvərlik, əsgərlərə göstərilən diqqət və qayğı insana öz evindəki kimi rahatlıq verir. Yaşı min illərlə ölçülən qədim bir yurdda olmaq və Vətənimizin əziz bir parçası Naxçıvanda, onun keçilməz dağlarında xidmət etmək hər bir gəncin qürurudur.

Əsgərimiz onu da deyir ki, burada bizim ərzaq və geyim təminatımız yüksək səviyyədə olsa da, yerli əhali və bir çox şirkətlər təkcə bayram günlərində deyil, başqa vaxtlarda da tez-tez bizə sovqat gətirir. Bu qayğı hərbçilərimizi daha da ruhlandırır, onlarda böyük əzmkarlıq, rəşadət hissi yaradır.

*Vətənimizi hərəsi bir evin madarı, bir atanın, ananın ümid işığı, bir bacının qardaşı, bir gözəlin adaxlısı olan igid balalarımıza, onları isə Uca Tanrıya əmanət edib, əsgər və zabitlərimizdən ayrılırıq. Və bu gün burada olarkən bir daha gördük ki, bu xalq, bu millət heç vaxt məğlub ola bilməz. Çünki hər birimizin damarında qanla birlikdə Vətən sevgisi axır.*

**Ramiyyə ƏKBƏROVA**

*Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsinin, tolerantlıq mühitinin formalaşdırılmasının, milli-mənəvi dəyərlərə qayğı siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Dini həmrəyliyi yüksək mədəniyyətin göstəricisi kimi dəyərləndirən ümummilli liderimiz Azərbaycana rəhbərliyinin hər iki dövründə mənəvi dəyərləri diqqətdə saxlayıb. Ümummilli lider Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə dünya azərbaycanlılarının həmrəyliyinin əsasını qoyması və müstəqillik illərində ölkəmizdə yaşayan bütün xalqların birliyinin ifadəsi olan Azərbaycançılığı dövlətçilik ideologiyası səviyyəsinə qaldırması onun bəşəriyyət qarşısındakı xidmətləridir. Ulu öndər dövlət-din münasibətlərinin tarixi-milli ənənəyə və müasir hüquqi prinsiplərə uyğun olaraq tənzimlənməsinə, vicdan azadlığının təminatına, dini-mənəvi, əxlaqi-etik dəyərlərin təbliğinə daim böyük qayğı ilə yanaşıb. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət-din siyasəti ölkəmizdə uğurla həyata keçirilir, dini-mənəvi dəyərlərin qorunub-yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür.*



# Dini dəyərlərimizə yüksək ehtiram humanizm, vətənpərvərlik nümunəsidir

Naxçıvan Muxtar Respublikasında da dini-mənəvi dəyərlərin qorunması sahəsində ardıcıl işlər görülür, dini maarifçilik ümumi maarifçiliyin tərkib hissəsi kimi inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 28 fevral tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası Nümayəndəliyinin bazasında Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi yaradılıb. Bu dövlət orqanı böyük bir inkişaf yolu keçib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 18 dekabr tarixli Fərmanı ilə idarənin əsasında Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi, 2017-ci il 28 dekabr tarixdə isə agentliyin tabeliyində "Mənəvi dəyərlərin təbliği Fondu" yaradılıb.

Agentlik Naxçıvan Muxtar Respublikasında dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət olunmasını, müvafiq icra hakimiyyəti orqanlarının dini qurumlarla bağlı fəaliyyətlərinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanı kimi uğurla fəaliyyət göstərir. Bu sahəyə dövlət qayğısının nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında dini etiqad azadlığı təmin olunub. Qədim diyarımızda mənəvi dəyərlərimiz qorunur, dini bayramlar yüksək səviyyədə qeyd edilir, ziyarətgahlar, məscidlər, məbədlər təmir və ya bərpa olunaraq dindarların istifadəsinə verilir. Muxtar respublikada aparılan məqsədyönlü siyasət nəticəsində İslam dini olduğu kimi təbliğ edilir, dini əsaslara uyğun ibadətlər təşkil olunaraq tolerantlıq prinsipləri ciddi şəkildə qorunur. Görülən işlərin nəticəsi olaraq uzun müddətdir ki, muxtar respublikada müxtəlif məzhəblərə məxsus şəxslərin məscidlərdə birgə ibadət etmələri təmin olunub.



Naxçıvanda ali dini təhsilli kadrların hazırlanması istiqamətində də ciddi addımlar atılır. 2015-ci ildən etibarən "Naxçıvan" Universitetində Dinşünaslıq ixtisası açılaraq fəaliyyətə başlayıb. Bununla yanaşı, dini fəaliyyətlə məşğul olanların biliklərinin artırılması da diqqətdə saxlanılır. Dini təhsilə meyilli olanlar üçün Naxçıvan şəhər "Sarvanlar" məscidində qadın və kişilərdən ibarət müvafiq təkmilləşdirmə kursları təşkil olunub. 2014-cü ildən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyalar yaradılıb. Bu komissiyalar da insanlar və dinlərarası dialoqa öz töhfəsini verir.

Naxçıvan Muxtar Respublikasında milli-dini ənənələri yaşatmaq, dini maarifləndirmə işini gücləndirmək, dini abidə və ziyarətgahları qorumaq və onlardan düzgün istifadə etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura yaradılıb. Şura tərəfindən Naxçıvan Muxtar Respublikasında dini bayramlar, ayinlər və yas mərasimlərinin milli-mənəvi dəyərlərimizə və ənənələrimizə uyğun şəkildə keçirilməsi məqsədilə tədbirlər görülür.



2017-ci ildə "İslam Həmrəyliyi İli" çərçivəsində Naxçıvanda "Ümummilli lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda konfrans keçirilməsi muxtar respublikanın İslam mədəniyyətinin, milli və dini dəyərlərimizin yaşadıcısı və yorulmaz təbliğatçısı olduğunu bir daha sübut etdi.

Bu gün muxtar respublikada tarixi-mədəni irsimizə hörmətlə yanaşılır. Min illərin yadigarı olan abidələrimiz bərpa olunaraq qorunub yaşadılır, gələcək nəsillərə çatdırılır. Muxtar respublikada dini-mədəni abidələr bərpa olunur, yeni məscidlər tikilir, dindarların ibadəti üçün hərtərəfli şərait yaradılır. Müstəqillik illərində muxtar respublikada 70-dən çox məscid tikilib, yüzlərlə məscid yenidən qurulub və ya bərpa olunub.

Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması, bu statusu layiqincə daşıması, bu münasibətlə çoxsaylı tədbirlərin keçirilməsi İslam dininə verilən yüksək dəyərin, ümumilikdə, dini həmrəyliyə göstərilən diqqətin nəticəsidir. Muxtar respublikada İslam tarixinin bir hissəsi olan, əsrlərdən bəri ziyarətgah və inanc yeri kimi fəaliyyət göstərən imamzadələrin bərpası da diqqət mərkəzində saxlanılır.

Dini dəyərlərimizin qorunub yaşadıldığı bir yaşayış məntəqəsi kimi tanınan Nehrəm qəsəbəsində 570 nəfərin eyni vaxtda ibadət edə biləcəyi məscid istifadəyə verilərkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Məscidlər ibadət yeri olmaqla yanaşı, həm də mənəvi dəyərlərimizin yaşadıldığı məkanlardır. Bu gün istifadəyə verilən məscid binası İslami dəyərlər əsasında qurulmuşdur. Məsciddə İslam dini və mənəvi dəyərlərimiz gələcək nəsillərə olduğu kimi öyrədilməli, saf əməllər naminə ibadətlər olunmalıdır".***



Ali Məclis Sədrinin iştirakı ilə Babək şəhərində də məscid və Mərasim evi istifadəyə verilmiş, Naxçıvan şəhərinin, Şərur, Babək və Ordubad rayonlarının dini icmalarına xidməti avtomobillər təqdim edilərkən Ali Məclisin Sədri demişdir: ***"Bu gün dövlətimiz İslam dəyərlərinin olduğu kimi təbliğini diqqətdə saxlayır, dinə əsassız müdaxilələrin qarşısı alınır. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi bu sahə üzrə fəaliyyət göstərən dövlət qurumu tərəfindən həyata keçirilir. Muxtar respublikamızda da bu sahə üzrə dövlət təşkilatı fəaliyyət göstərir. Bu gün Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi ilə dini icmalar arasındakı əlaqələr dövlət-din münasibətlərinin tənzimlənməsinə və möhkəmlənməsinə xidmət edir. Birgə fəaliyyət isə həm ölkəmizə, həm də insanlarımıza fayda verir".***

Şərur şəhərində Mərasim evi və dini icma üçün iş otaqlarının istifadəyə verilməsi dini dəyərlərimizin yaşadılması, dini ayinlərin icrası, ibadətlərin yerinə yetirilməsi, İslami dəyərlərin öyrənilməsi və təbliği məqsədilə həyata keçirilən dövlət siyasətinin növbəti təzahürüdür.

2021-ci il dekabrın 21-də Babək rayonunun Cəhri qəsəbəsində imam otağı, qadınlar üçün 44, kişilər üçün 85 yerlik ibadət zalı olan, yeni məscid istifadəyə verilmişdir. Ali Məclisin Sədri açılış mərasimindəki çıxışı zamanı demişdir: ***"Mənəvi dəyərlərə hörmət olan yerdə bərəkət, inkişaf və Vətənə sədaqət olur. Ona görə də bu gün tikilən məscidlərimiz, ibadət yerlərimiz bir məqsədə xidmət edir: mənəvi dəyərlərimizi qorumaq, gəncləri Vətənə sədaqət və vətənpərvər ruhda tərbiyə etmək. Bütün bunlar isə, son nəticədə, ölkəmizin inkişafına xidmət edir".***

2019-cu il dekabr ayının 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin yubiley tədbiri çərçivəsində Ordubad rayonunun Dırnıs kəndində "Allahşükür məscidi"nin istifadəyə verilməsi isə muxtar respublikada həm də tanınmış din xadimlərinə yüksək ehtiramın ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə açılış tədbirində iştirak etmişlər. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin açılış mərasimindəki çıxışı muxtar respublikada dini dəyərlərə dövlət səviyyəsində yüksək ehtiramı qiymətləndirmək baxımından əhəmiyyətlidir: *"Yeni məscidin istifadəyə verilməsi Naxçıvanda dini dəyərlərə göstərilən qayğının nümunəsidir. Bu yol ulu öndər Heydər Əliyev yoludur. Bu yol Azərbaycanı daha işıqlı sabahlara aparır. İlk dəfə adım bir məsciddə əbədiləşir. Bu mənim üçün böyük qürur və iftixardır. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm. Allah doğma Azərbaycanımızı, Naxçıvanımızı qorusun".*

Muxtar respublikanın inkişafında milli və mənəvi dəyərlərimizə qayıdış xüsusi yer tutulduğunu sübut edən daha bir fakt hazırda Naxçıvan şəhərində yeni məscid kompleksinin inşasıdır.

6400 kvadratmetr sahədə inşa olunan kompleksdə məscidlə yanaşı, Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura üçün inzibati bina və Mərasim evi yerləşəcəkdir. Məscid binasının fasadında və daxilində işlər milli naxışlıq elementləri və dini rəmzlər əsas götürülərək aparılır. İslam dəyərlərinə və Naxçıvan memarlıq üslubuna uyğun tərtibat verilir, pəncərələr şəbəkə formasında yığılır. Məsciddə qadın və kişilər üçün ayrıca ibadət zalları, mədrəsə, həyətdə isə dəstəmaz yerləri istifadəyə veriləcəkdir.

*Bütün bunlar bir daha təsdiq edir ki, Naxçıvan dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində də öz fərqli inkişaf modelini ortaya qoya bilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Din mənəviyyat deməkdir. İnsanın həyatda düzgün yol seçməsində, mənəvi aləminin zənginləşməsində dini dəyərlərin mühüm rolu vardır. Bu dəyərlərin qorunub yaşadıldığı mənəviyyat ocaqlarından biri də məscidlərdir. Bu müqəddəs yerlərdə insanlar mənəvi saflıq ətrafında birləşirlər".***

**✍ Aytac CƏFƏRLİ**

## Muxtar respublikada ailə, qadın və uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması fevral ayında da diqqətdə saxlanılmış, bir sıra tədbir, seminar, təlim və monitorinq keçirilmişdir.*

Ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi diqqətdə saxlanılmışdır. Ötən ay Babək rayon Qahab kənd sakini aztəminatlı Nəsirovlar ailəsinə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış və ailəyə ehtiyaclarına uyğun köməklik göstərilmişdir. Qadınların hüquqi biliklərinin artırılması, sağlamlıqlarının qorunması, yeni nəslin sağlam doğulması və böyüməsi məqsədilə Şərur rayonunun Çərçiboğan kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilmiş və 215 maarifləndirici broşür paylanılmışdır.

Özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən əl işləri mağazasında 8 istedadlı qadının 149 manat dəyərində 15 əl işi satılmışdır. "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" və "Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihələrində sərmayə kapitalı verilmiş 5 qadının yaşadığı ünvanlarda sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmiş, heç bir nöqsan aşkarlanmamışdır.

Babək rayonunda yaşayan xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü və sağlamlıq imkanları məhdud qadınlara xalçaçılıq peşəsinin öyrənilməsi ilə bağlı təlim keçirilib. Təlimdə Babək rayonunda yaşayan xüsusi qayğıya ehtiyacı olan ailədən 3 nəfər, sağlamlıq imkanları məhdud 11 qadın və 3 nəfər Babək rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin aid dərnək rəhbərləri olmaqla, 17 nəfər iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasında tək qadınların və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Belə ki, şəhər və rayon icra hakimiyyətlərindən aid kateqoriyadan olan qadınlar haqqında məlumatlar alınmış, komitədə yaradılmış bazaya əlavə edilmiş, təhlili aparılmışdır. Bununla bağlı Babək rayonu üzrə 120 qadınla əlaqə saxlanılmış, onlardan 2-nin peşə təhsilinə yiyələnməsi üçün məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinə göndərilmişdir. Sosialist Əməyi Qəhrəmanı Həvayət Qurbanovanın 85 illik yubileyi münasibətilə yaşadığı ünvanda tədbir keçirilmiş, yubilyara qiymətli hədiyyələr təqdim olunmuşdur.

Hesabat ayında İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu ilə komitədə görüş keçirilmişdir.

"Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq 2021-ci il üçün uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdir. Müvafiq qaydaya uyğun olaraq 2 uşaq müəssisəsində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 1 uşağın evində monitorinq keçirilmişdir. Muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 236 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar fevral ayında Naxçıvan şəhəri və Babək rayonu üzrə tədrisə cəlb edilmiş 63 sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 18 müəssisədə, həmçinin 10 sağlamlıq imkanları məhdud uşağın məktəbəqədər təhsil müəssisələrinə cəlbi ilə bağlı evlərində monitorinq keçirilmiş, 2 uşaq məktəbəqədər təhsil müəssisəsinə cəlb olunmuşdur.

Ordubad rayonunda fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı bu sahəyə məsul olan şəxslərin iştirakı ilə maarifləndirici seminar keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Mədəniyyət müəssisələrində açıq dərslər və onlayn ekskursiyalar təşkil olunub



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və tabe müəssisələr tərəfindən fevral ayında da bir sıra tədbirlər keçirilmişdir.*

Ötən ay Azərbaycan Respublikasının Əməkdar artisti Behruz Haxverdiyevin 60, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Prezident mükafatçısı, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının baletmeysteri Tamerlan Bağırovun isə 70 illik yubiley tədbirləri keçirilmişdir.

Fevral ayında Naxçıvan Muxtar Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında "Məktəblilərin dram müsabiqəsi"nin muxtar respublika mərhələsi keçirilmiş, qaliblər müəyyənləşdirilmişdir. Ötən ay Cəlil Məmmədquluzadənin ev-muzeyində Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrinə açıq dərslər keçilmiş, həmçinin universitetin bir qrup tələbəsinin muxtar respublikanın muzey və kitabxanalarında təcrübə keçmələri təmin olunmuşdur.

Hesabat ayında "Əllə toxunmuş xalçaların reyestri sistemi"nə daxil olan 2 xalça haqqında məlumat *naxcivan_muzeyleri* "İnstagram" səhifəsində və Naxçıvan Dövlət Xalça Muzeyinin sosial şəbəkə hesablarında paylaşılmışdır.

Muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarənin, müəssisə və təşkilatların muzeylərlə tanışlığı təmin edilmişdir. Fevral ayında muxtar respublikanın muzeylərini 20 min 106 yerli, 5 min 578 əcnəbi olmaqla, ümumilikdə, 25 min 684 tamaşaçı ziyarət etmiş, muzeylərə 145 yeni eksponat daxil olmuşdur. Aid təşkilatlarla birgə muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanı və Muzeyi, Cəlil Məmmədquluzadənin ev-muzeyi və Xatirə Muzeyi arasında müvafiq mövzularda 3 interaktiv dərs keçilmişdir. Ötən ay Kəngərli rayonunun Qıvraq qəsəbə, Ordubad rayonunun Kotam və Culfa rayonunun Milax kənd mərkəzlərində muzey əməkdaşlarının sakinlərlə 3 görüşü olmuşdur. Ay ərzində Cəlil Məmmədquluzadənin anadan olmasının 153-cü ildönümü münasibətilə ədibin Naxçıvan şəhərindəki ev-muzeyində, Nehrəm qəsəbəsində və Cəlilkənddəki Xatirə muzeylərində, həmçinin Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində açıq dərslər və onlayn ekskursiya təşkil edilmişdir. Eyni zamanda fevral ayında muxtar respublikanın əksər muzeylərində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş sərgilər qurulmuş, açıq dərslər keçilmişdir. Şəhidlərimizin doğum və anım günləri, əlamətdar və tarixi günlər, tanınmış şəxsiyyətlərlə bağlı və digər bu kimi mövzularda muzeylərə onlayn ekskursiya təşkil edilmişdir.

"Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan kitabların müzakirəsi fevral ayında da davam etdirilmişdir. Ay ərzində muxtar respublikanın kitabxanaları tərəfindən ədəbi şəxsiyyətlərin yubileyləri, eləcə də əlamətdar və tarixi günlərlə bağlı 19 tədbir keçirilmiş, 53 sərgi qurulmuşdur. Ötən ay "Mütaliə", "Nağıl", "Kitabxanaçı" və "Kitabxana" günləri ilə bağlı muxtar respublikanın kitabxanaları tərəfindən 238 tədbir keçirilmiş, həmçinin sağlamlıq imkanları məhdud 31 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Hesabat ayında muxtar respublikanın kitabxanalarına 250 adda 314 nüsxə çap məhsulu daxil edilmişdir. Həmçinin kitabxanalara bu ilin fevral ayında 1104 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 8 min 630, kitab verilişi isə 43 min 681 nüsxə olmuşdur. Bundan başqa, ötən ay elektron kataloqa 702 adda kitab işlənərək elektron kataloqdakı kitabların sayı 30 min 708-ə, şəbəkəyə işlənmiş (PDF) kitabların sayı isə 40 olmaqla belə kitabların sayı 3 min 741-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan 338 lokal, 499 qlobal olmaqla, ümumilikdə, 837 oxucu istifadə etmişdir.

Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz və rayon mədəniyyət sarayları yubileylər, əlamətdar və tarixi günlərlə bağlı, ümumilikdə, 10 material hazırlamışlar. Mərkəz tərəfindən Ordubad Rayon Mədəniyyət Şöbəsinin tabeliyində olan klub müəssisələrə dərnək fəaliyyəti və dərnəklərdə sənədləşmə işinin aparılması ilə bağlı yerində əməli köməklik göstərilmişdir. Babək Rayon Mədəniyyət Sarayında Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin konserti olmuşdur. Naxçıvan Dövlət Film Fondu tərəfindən ay ərzində 9 film nümayiş olunmuş, filmlərin nömrələnməsi, pasportlarının yenilənməsi və lentlərin təmizlənməsi işləri davam etdirilmişdir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında ötən ay 2 tamaşa nümayiş etdirilmiş, İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" əsəri əsasında səhnələşdirilən tamaşanın məşqləri aparılmışdır. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında da ay ərzində 6 tamaşa nümayiş olunmuş, teatr tərəfindən Vüqar Haqverdiyevin "Saçları səməni oğlan" əsəri əsasında səhnələşdirilən tamaşanın məşqləri davam etdirilmişdir. Naxçıvan Dövlət Uşaq Teatrında isə Tofiq Seyidovun "Bahar gəlir, yaz gəlir" əsəri əsasında səhnələşdirilən tamaşanın məşqləri aparılmışdır.

Naxçıvan Dövlət Filarmoniyasının kollektivləri tərəfindən Gənclər Günü ilə bağlı 2 konsert proqramı təqdim edilmişdir. Ötən ay da muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin hesabat konsertləri olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Fövqəladə Hallar Nazirliyi və Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən bütün yaşayış məntəqələrində və təşkilatları, ticarət obyektlərini, istehsal müəssisələrini, kənd və xidmət mərkəzlərini, yaşayış binalarını, hərbi hissələri, sərhəd zastavalarını, park və istirahət mərkəzlərini, ali təhsil ocaqlarını, məktəbəqədər, məktəbdənkənar, peşə və ümumtəhsil məktəblərini, ümumiyyətlə, əhalinin daha çox istifadə etdiyi məkanları əhatə edib.

## Dezinfeksiya tədbirlərinin növbəti mərhələsi yekunlaşıb

və əhali sıxlığı müşahidə olunan yerlərdə qrafikə uyğun tibbi-profilaktik tədbirlərin aparılması barədə verilən tapşırıqların icrası ilə bağlı mart ayından dezinfeksiya tədbirlərinin növbəti mərhələsi həyata keçirilib.




Muxtar respublikada martın 9-dan başlanılan, 19 gün davam edən dərmanlama işləri qrafik əsasında Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında əhalinin intensiv istifadə etdiyi bütün sahələri əhatə edib.

Fövqəladə Hallar Nazirliyinin tərtib etdiyi qrafik əsasında 12 xüsusi təyinatlı avtomobillərlə aparılan profilaktik tədbirlər nəticəsində Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında, ümumilikdə, 12 milyon 200 min kvadratmetrdən artıq sahəni əhatə edən avtomobil yolları və piyada səkiləri dezinfeksiya edilib. Həmçinin dərmanlama tədbirlərinə Dövlət Baytarlıq Xidmətinin dezinfeksiyaedici avtomobili və şəxsi heyəti də cəlb olunub.

Fövqəladə Hallar Nazirliyinin və Gigiyena və Epidemiologiya Mərkəzinin dezinfeksiya qrupu tərəfindən isə dərmanlama işləri mərhələli şəkildə idarə, müəssisə

Muxtar respublikanın təlim-tədris müəssisələrində də yoluxucu xəstəliklərə, virus infeksiyalarına qarşı tibbi-profilaktik tədbirlər həyata keçirilir. Belə ki, tərtib edilən qrafik əsasında martın 22-dən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, Gigiyena və Epidemiologiya Mərkəzi və Dövlət Baytarlıq Xidməti tərəfindən tam orta, uşaq musiqi, şahmat, texniki peşə və sürücülük məktəbləri, uşaq bağçaları, ali təhsil müəssisələri xüsusi məhlullarla dezinfeksiya olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Daha bir beynəlxalq turnir keçirilib



*Naxçıvan Şahmat Mərkəzində təşkil olunan "Dördüncü bazar günü" beynəlxalq usta norma yarışı başa çatıb.*

Azərbaycan, Gürcüstan, İran və Türkiyə ilə yanaşı, Naxçıvan şahmatçılarının da mübarizə apardığı yarışda 10 zəka sahibi iştirak edib. Qrossmeyster, FIDE ustası və beynəlxalq ustaların mübarizə apardığı yarış İsveçrə sistemi üzrə 9 turdan ibarət olub.

Yarışın yekun nəticəsinə əsasən 7 xal toplayan Bakı şəhər təmsilçisi, ustalığa namizəd Ümid Aslanov (2226) qalib adını qazanıb. FIDE ustası Şiroğlan Talıbov (2318) 9 turdan 5,5 xal toplayaraq ikinci olub. Gürcüstan təmsilçisi, beynəlxalq qrossmeyster Valerian Qaprindaşvili (2358) isə 5 xalla yarışı üçüncü pillədə başa vurub.

Xatırladaq ki, Sloveniyanın Terme Kates şəhərində şahmat üzrə Avropa fərdi çempionatı start götürüb. 300-dən çox zəka sahibinin mübarizə apardığı qitə birinciliyində Azərbaycan 15 şahmatçı ilə təmsil olunur. İştirakçılar arasında Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının məşqçi-müəllimi, beynəlxalq usta Toğrul Həsənzadə (2297) də mübarizə aparır. Şahmatçımız ilk turda ukraynalı qrossmeyster Vladimir Baklanla (2591) üz-üzə gəlib. Görüş "sülh"lə başa çatıb. Şahmatçımız növbəti turda belçikalı qrossmeyster Daniel Bardha (2540) ilə qarşılaşacaq.

Qeyd edək ki, çempionat İsveçrə sistemi ilə 11 turdan ibarət olacaq. Yekunda ən yaxşı reytinqə malik 23 oyunçu üçün müntəzəm mükafatlarla yanaşı, ən yaxşı qadın oyunçular, ən yaxşı gənc oyunçular, ən yaxşı yaşlı oyunçular və digər kateqoriyalar üzrə xüsusi mükafatlar veriləcək. Eyni zamanda bu çempionat FIDE dünya kubokunun seçmə mərhələsidir. Qaydalara əsasən 20 oyunçu mundiala vəsiqə qazanacaq.

**Ceyhun MƏMMƏDOV**

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilməkdədir.*

Ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 37 yoxlama-reyd keçirilmişdir. Bu sahədə 3 inzibati xəta halı qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublika təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilir. Bu məqsədlə Şərur rayonunun Gümüşlü, Şahbuz rayonunun Daylaqlı, Culfa rayonunun Əlincə, Şahbuz rayonunun Badamlı kəndlərində əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri keçirilmişdir.

Ay ərzində Naxçıvan şəhəri, Babək, Şərur, Kəngərli, Culfa, Şahbuz, Ordubad və Sədərək rayonlarının 27-dən çox yaşayış məntəqəsi ərazisində ekoloji monitorinqlər aparılmış, su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və mərkəzi avtomobil yollarının kənarlarında yerləşən yaşıllıq zolaqlarındakı mövcud vəziyyət öyrənilmişdir. Monitorinqlər zamanı bir sıra çatışmazlıqlar qeydə alınmış, nöqsanların aradan qaldırılması üçün icrası məcburi olan tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında fevral ayında Araz çayının və Arpaçayın muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülərək analiz aparılmışdır. Nəticədə, sularda çirklənmə hallarının yol veriləbilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Hesabat ayında muxtar respublikanın kənd təsərrüfatı əkinləri üçün yararsız torpaq sahələrində, həmçinin maili yamac və dağətəyi zonalarda 2022-ci ilin yaz əkin mövsümündə əkin-bərpa tədbirlərinin icrası məqsədilə ərazilərə baxış keçirilmiş və sxem-planlar hazırlanmışdır. Sxemplana uyğun olaraq 9,5 hektar sahədə texnika vasitəsilə torpaq hazırlığı işləri aparılmış, su arxları çəkilmiş, ərazi kol-kosdan təmizlənmiş, torpaqların münbitliyinin artırılması məqsədilə ərazilərə üzvi gübrə gətirilmişdir. Həmçinin 6,5 hektar sahədə bərpa aparılması üçün çalalar qazılmışdır.

Meyvə bağlarında torpaqların münbitliyinin artırılması məqsədilə Uzunoba Su Anbarının yuxarı hissəsindəki meyvə bağlarına 150 kiloqram mineral gübrə verilmişdir. Hesabat ayında yeni salınmış meyvə və üzüm bağlarına, tinglik sahələrinə baxış keçirilmiş, həmin ərazilərin ziyanvericilərin təsirindən qorunması, fauna ehtiyatlarının qaba yem və dağdaşdan olan tələbatının ödənilməsi üçün biotexniki tədbirlər görülmüşdür. Ümumilikdə, biotexniki tədbirlər zamanı ərazilərə 1400 kiloqram daşduz, 95 kip qaba yem və 850 kiloqram meyvə-tərəvəz qalığı dağıdılmışdır. Həmin ərazilərə yaxın yaşayış məntəqələrində ictimaiyyətlə ətraf mühitə təsir hallarının aradan qaldırılmasına dair ekoloji-hüquqi maarifləndirici söhbətlər aparılmış, yoxlama-reydlər keçirilmişdir.

1953-1954-cü illərdə Gümüşlü sahəsində aparılmış geoloji axtarış və kəşfiyyat işlərinin nəticələri haqqında rus dilində olan hesabatın tərcüməsi yekunlaşdırılmış, elektronlaşdırılaraq Geoloji informasiya arxiv fonduna verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarından irəli gələn vəzifələrin icrası məqsədilə 20 hami ixtisas tələbəsinin və ekologiya könüllülərinin iştirakı ilə Gənclər Günü və Ümumdünya Su-Bataqlıq Əraziləri Gününə həsr edilmiş ekskursiya təşkil edilmişdir. Ekskursiya zamanı gənclər Araz Su Anbarı ərazisində məskunlaşmış ornitofauna növlərini xüsusi teleskop və binokl vasitəsilə müşahidə etmişlər və onları maraqlandıran suallar cavablandırılmışdır. Eyni zamanda fevralın 5-də 27 ekologiya könüllüsünün iştirakı ilə Zəngəzur Milli Parkının Şahbuz ərazisində biotexniki tədbir keçirilmişdir. Fevralın 22-də isə "Naxçıvan" Universitetinin 30-a yaxın tələbəsinin iştirakı ilə Zəngəzur Milli Parkının Batabat ərazisindəki informasiya mərkəzində xüsusi slaydlar vasitəsilə treninq keçirilmiş, xüsusi mühafizə olunan təbiət əraziləri, onların əhəmiyyəti və turizm potensialı haqqında geniş məlumat verilmişdir. Bu kimi tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Babək rayonunun Yarımca kəndində yaşamış Rzayeva Nənəxanım Rzaqulu qızının adına verilmiş 231^ nömrəli "Torpağın mülkiyyət hüququna dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 257